Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

## “Dövlət satınalmaları haqqında” Qanununa edilmiş dəyişikliklər haqqında

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu 28 dekabr 2018-ci il tarixdə qüvvəyə minib. Dəyişikliklər sırasında həmçinin, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dövlət satınalmalarında iştirak səviyyəsini artıran müddəalar da yer alıb.

Belə ki, ehtimal olunan qiyməti 3 milyon ABŞ dolları ekvivalentində və ya ondan aşağı olan malların (işlərin, xidmətlərin) dövlət satınalmaları yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçiriləcək. Qeyd etmək lazımdır ki, elektron satınalmalarda iddiaçı qismində yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı nəzərdə tutulduğundan bu növ satınalmaları mikro, kiçik və orta sahibkarlıq subyektləri ilə keçirilməsi şərti satınalan təşkilatlar üçün məcburidir.

Qüvvəyə minmiş dəyişikliklərə əsasən satınalma prosedurları haqqında dəvətlər və həmin prosedurların nəticələri dərc edilən, satınalma müqavilələrinin və etibarsız malgöndərənlərin (podratçıların) vahid reyestri aparılan, dövlət satınalmalarının elektron vasitələrlə həyata keçirilməsini təmin edən, dövlət satınalmalarını tənzimləyən qanunvericiliyi əks etdirən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (Azərbaycan Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi) elektron informasiya sisteminə inteqrasiya olunan dövlət satınalmalarının vahid internet portalının yaradılması nəzərdə tutulur.

Portal fəaliyyətə başladıqdan sonra orada elektron kabineti olan hər bir mikro, kiçik və orta sahibkarlıq subyekti elektron satınalma vasitəsilə açıq tenderin keçirilməsi barədə elan verildikdən sonra ehtimal olunan qiyməti 3 milyon ABŞ dolları ekvivalentində və ya ondan aşağı olan malların (işlərin, xidmətlərin) dövlət satınalmaları üzrə iddiaçı ola bilər. Qanuna əsasən elektron satınalma vasitəsilə açıq tenderin keçirilməsi barədə elan tender təkliflərinin qiymətləndiriləcəyi gündən azı 20 bank günü əvvəl dövlət satınalmalarının vahid internet portalı vasitəsilə dərc olunur. Tender dövlət satınalmalarının vahid internet portalı vasitəsilə həyata keçirildikdə,

satınalmaların nəticələri tender təkliflərinin qiymətləndiriləcəyi gündən dərhal sonra qiymət təklifinin ardıcıllığına uyğun olaraq dövlət satınalmalarının vahid internet portalı vasitəsilə avtomatik müəyyən olunur və qərar qəbul edilməsi üçün elektron qaydada tender komissiyasına göndərilir. Tender komissiyası 1 bank günü ərzində bu Qanuna uyğun olaraq təklifi qiymətləndirərək qərar qəbul edir və qərarı həmin gün dövlət satınalmalarının vahid internet portalında yerləşdirir. Elektron satınalma vasitəsilə açıq tenderin keçirilməsinə münasibətdə satınalma müqaviləsi tenderin qalibi ilə dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada bağlanılır və bu Qanuna əsasən tələb olunduğu hallarda (100 min ABŞ dolları ekvivalentində yuxarı məbləğdə satınalmalar üçün) müqavilənin yerinə yetirilməsi təminatı həmin portal vasitəsilə təqdim edilir. Satınalan təşkilat tender müqaviləsi aksept edildikdən sonra 3 bank günündən gec olmayaraq satınalma müqaviləsini hazırlayaraq, dövlət satınalmalarının vahid internet portalında yerləşdirir və imzalayır. Malgöndərən (podratçı) həmin müqaviləni 5 bank günü müddətində imzalayır.

Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, subpodrat müqavilələrinin ümumi dəyərinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

Digər iddiaçılarla yanaşı, mikro kiçik və orta sahibkarlıq subyektləri üçün tender təklifinin təminatı 1 faizi miqdarında müəyyən edilib. Əvvəllər bu məbləğ 1-5 faiz arasında idi.

Qüvvəyə minmiş dəyişikliklərə əsasən Qanunun 50-1-ci maddəsinə əsasən keçirilən satınalmalara münasibətdə (elektron satınalmalar – iddiaçılar yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləridir) satınalan təşkilata və ya təsdiq edən orqana verdiyi şikayətlər, həmçinin inzibati qaydada verilən şikayətlər üzrə qərarın çıxarılma müddəti 10 bank günü müəyyən edilib (digər kateqoriyalara aid şikayətçilər üçün 20 bank günüdür).

Daha ətraflı məlumat əldə etmək üçün aşağıdakı linklərdən istifadə oluna bilər:

http://e-qanun.az/framework/1029

http://e-qanun.az/framework/41178